# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1993-cü il 6 avqust tarixli 438 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli, "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsinin təsdiq edilməsi haqqında" 1998-ci il 29 may tarixli 119 nömrəli, "Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" 2001-ci il 1 mart tarixli 52 nömrəli, "Azərbaycan Respublikasında elektrik enerjisindən istifadəyə görə büdcə təşkilatlarının normaları və birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) siyahısı haqqında" 2001-ci il 25 dekabr tarixli 199 nömrəli, "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması qaydasının təsdiq edilməsi barədə" 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli, "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli, "Əhalinin bəzi təbəqələrinə dövlət özəlləşdirmə paylarının (çeklərinin) verilməsi işinin təşkili haqqında" 2004-cü il 15 iyul tarixli 95 nömrəli, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı**

**və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2006-cı il 27 yanvar tarixli 25 nömrəli, "Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 4 aprel tarixli 96 nömrəli, "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli, "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 29 fevral tarixli 59 nömrəli, "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2011-ci il 12 may tarixli 79 nömrəli, Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün hərbi qulluqçunun və ya vəfat etmiş hərbi qulluqçunun ailə üzvlərinin müraciət etdiyi vaxt təminat xərcliyinin hesablandığı hərbi xidmət vəzifəsi mövcud olmadıqda hərbi qulluqçuların vəzifələrinin mövcud hərbi xidmət vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın təsdiq edilməsi barədə" 2013-cü il 27 fevral tarixli 30 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2005-ci il 13 dekabr tarixli 328 nömrəli, "Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" 2006-cı il 29 mart tarixli 382 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 2 fevral

tarixli 451 nömrəli və “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 39-VQD nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 14 yanvar tarixli 727 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 aprel tarixli 1663 nömrəli Fərmanının 6-cı hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 avqust tarixli 438 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddələr 750, 756; 2006, № 9, maddə 822; 2008, № 2, maddə 116; 2010, № 3, maddə 264; 2013, № 10, maddə 1194; 2014, № 6, maddə 747; 2018, № 12 (II kitab), maddə 2736; 2019, № 1, maddə 153; 2020, № 11, maddə 1417; 2022, № 4, maddə 390) ilə təsdiq edilmiş “Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə”nin 1.7-ci bəndinin ikinci cümləsinə “yerli” sözündən sonra “baş idarə,” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 191, № 6, maddə 388, № 8, maddə 534; 2002, № 3, maddə 148, № 4 (II kitab), maddə 199; 2003, № 6, maddə 342; 2006, № 5, maddə 474, № 9, maddələr 819, 830; 2008, № 2, maddə 130; 2009, № 7, maddə 604; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1356; 2016, № 4, maddə 824, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 2, maddə 306, № 4, maddə 610, № 5, maddə 994; 2019, № 9, maddə 1552; 2020, № 10, maddə 1295, № 11, maddə 1397; 2021, № 3, maddə 275, № 4, maddə 404, № 7, maddələr 871, 875, № 10, maddə 1164, № 12, maddələr 1518, 1535; 2022, № 1, maddə 74) ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın 4.1-ci bəndinin üçüncü abzasına “yerli” sözündən sonra “baş idarə,” sözləri əlavə edilsin.

3. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 360; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 6, maddə 541; 2006, № 5,

maddə 463; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1369; 2013, № 10, maddə 1199; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 12 (II kitab), maddə 2736; 2021, № 7, maddə 871, № 10, maddə 1195; 2022, № 4, maddə 413) ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin mətni üzrə ismin müvafiq hallarında "yerli idarə, şöbə və bölmələri" sözləri ismin müvafiq hallarında "yerli baş idarə, idarə, şöbə və bölmələri" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209; 2002, № 3, maddə 148, № 10, maddə 635; 2005, № 7, maddə 678; 2006, № 5, maddə 472, № 10, maddə 902; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1360; 2014, № 12, maddə 1662; 2017, № 12 (II kitab), maddə 2526; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 8, maddə 1478; 2020, № 6, maddə 804, № 11, maddə 1417, № 12 (V kitab), maddə 1584; 2021, № 10, maddə 1185; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 iyul tarixli 269 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar"ın 11-ci bəndinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 809; 2002, № 10, maddə 641; 2003, № 6, maddələr 342, 348; 2004, № 10, maddə 871; 2005, № 6, maddə 541, № 10, maddə 978; 2006, № 4, maddə 373, № 9, maddə 822, № 10, maddə 903; 2008, № 2, maddə 130; 2009, № 2, maddə 144, № 7, maddə 607, № 9, maddələr 736, 757, № 12, maddə 1065; 2012, № 12, maddə 1390; 2013, № 7, maddə 879; 2014, № 1, maddə 57, № 6, maddə 745; 2015, № 6, maddə 792; 2016, № 9, maddə 1585; 2019, № 3, maddə 513) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı"nın "Büdcədən maliyyələşdirilən istehlakçılar" bölməsinin onuncu abzasına "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645; 2005, № 2, maddə

122, № 3, maddə 250; 2007, № 1, maddə 47; 2008, № 4, maddə 316; 2010, № 3, maddələr 255, 264; 2012, № 9, maddə 938, № 12, maddə 1362; 2015, № 7, maddə 898, № 10, maddə 1245; 2016, № 9, maddə 1585; 2018, № 9, maddə 1949; 2019, № 2, maddə 340) ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 25-ci hissəsinin birinci abzasına, ikinci abzasının ikinci cümləsinə və üçüncü abzasına "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 iyul tarixli 269 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.17-ci bəndinə və 8.13-cü bəndinin birinci cümləsinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 15 iyul tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 586; 2011, № 10, maddə 974; 2012, № 12, maddə 1364; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2019, № 3, maddə 516) ilə təsdiq edilmiş "Əhalinin bəzi təbəqələrinə dövlət özəlləşdirmə paylarının (çeklərinin) verilməsi Qaydaları"nın 2.5-ci bəndinin altıncı və yeddinci abzaslarına "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

9. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi

ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35; 2012, № 12, maddə 1370; 2017, № 4, maddə 620) aşağıdakı dəyişikliklər edilsin:

9.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövründə bron edilməsi işinin təşkil olunması Qaydaları"nın 2.2-ci bəndinə, 2.3-cü bəndinin ikinci cümləsinə, 2.4-cü bəndinin birinci cümləsinə (hər iki halda) "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövrü üçün bron edilməsinə aid hesabatın təqdim edilməsi Qaydası"nın 2.1-ci bəndinə və 2.3.1-ci yarımbəndinə (ikinci halda) "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

9.3. həmin Qərarla təsdiq edilmiş "Səfərbərlik orqanları haqqında Əsasnamə"nin 4.1.6-cı, 4.1.7-ci, 4.1.9-cu və 5.1.6-cı yarım-bəndlərinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

9.4. həmin Qərarla təsdiq edilmiş "Müharibə dövrünün ştatlarında nəzərdə tutulmuş hərbi vəzifələrdə hərbi xidmətkeçmə məqsədilə hərbi hissələrə təhkim olunmuş (xüsusi birləşmələrə təyin edilmiş) vətəndaşların səfərbərlik üzrə hərbi xidmətə çağırılması qaydası, habelə Azərbaycan Ordusunun, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və xüsusi birləşmələrin mülki heyət vəzifələrində vətəndaşların işləmək üçün göndərilməsi Qaydası"nın 1.3-cü, 2.1-ci, 2.3-cü, 2.4-cü, 2.5-ci (hər iki halda), 3.1-ci (birinci halda), 3.3-cü, 3.4-cü (üçüncü halda) bəndlərinə, 3.6-cı bəndinin ikinci abzasına (hər iki halda), 3.9-cu və 3.10-cu bəndlərinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

10. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 yanvar tarixli 25 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 54; 2009, № 10, maddə 846;

2012, № 12, maddə 1358; 2014, № 2, maddə 201, № 6, maddə 747; 2016, № 5, maddə 955; 2017, № 4, maddə 620; 2019, № 1, maddə 158; 2022, № 4, maddə 391; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 31 may tarixli 215 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

10.1. həmin Qərarla təsdiq edilmiş "Səfərbərlik planlarına uyğun olaraq binaların, tikililərin, kommunikasiyaların, torpaq sahələrinin, rabitə, nəqliyyat və digər vasitələrin ayrılması ilə əlaqədar təşkilatlara vurulan zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 2-ci və 3-cü (ikinci halda) hissələrinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

10.2. həmin Qərarla təsdiq edilmiş "Səfərbərlik tədbirlərinin hazırlanmasına və həyata keçirilməsinə dair məlumatların təqdim edilməsi Qaydası"nın 2.2.3-cü yarımbəndinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

10.3. həmin Qərarla təsdiq edilmiş "Müharibə dövründə ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə binaların, tikililərin, nəqliyyat vasitələrinin və mülkiyyətində olan digər əmlakın təqdim edilməsi ilə əlaqədar vətəndaşlara vurulan zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 3-cü hissəsinə (ikinci halda) "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

10.4. həmin Qərarla təsdiq edilmiş "Ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə təşkilatların və vətəndaşların mülkiyyətində olan nəqliyyat vasitələrinin və digər əmlakın verilməsi ilə bağlı vurulmuş zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 3-cü hissəsinə (ikinci halda) "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

11. "Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 4 aprel tarixli 96 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 366; 2012, № 12, maddə 1367; 2017, № 4, maddə 620; 2021, № 5, maddə 524) aşağıdakı dəyişikliklər edilsin:

11.1. həmin Qərarla təsdiq edilmiş "Hərbi nəqliyyat vasitələrinin uçot Qaydaları"nın 1.3-cü və 1.4-cü bəndlərinə, 2.1-ci bəndinin birinci abzasına, 2.2-ci, 2.3-cü (ikinci halda), 3.1-ci (ikinci

halda), 3.2-ci bəndlərinə, 3.3-cü bəndinin birinci abzasına, 3.4-cü bəndinə, 4.1-ci bəndinin birinci abzasına, 4.2-ci, 4.4-cü, 4.5-ci bəndlərinə, 5.1-ci bəndin birinci abzasına, 5.2-ci və 5.4-cü bəndlərinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

11.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Ordusunun, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və xüsusi birləşmələrin hərbi nəqliyyat vasitələri ilə təmin olunması Qaydaları"nın 1.3-cü bəndinin ikinci abzasına, 2-ci hissəsinə, 3.4-3.6-cı bəndlərinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin;

11.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Ordusuna, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə və xüsusi birləşmələrə təqdim olunan hərbi nəqliyyat vasitələrinin səfərbərlik hazırlığını və texniki sazlığını təmin edən tədbirlərin və məcburi tələblərin siyahıları, habelə uçot və hesabat sənədlərinin Nümunələri"nin 1.3-cü bəndinin ikinci və altıncı abzaslarına, 1.4-cü bəndinin ikinci abzasına "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə

204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 iyun tarixli 248 nömrəli və 4 iyul tarixli 255 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 4-1.1.1-ci yarımbəndinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134; 2010, № 1, maddə 59; 2012, № 12, maddə 1371; 2013, № 10, maddə 1204, № 12, maddə 1627; 2015, № 5, maddə 659; 2016, № 9, maddə 1585; 2017, № 4, maddələr 620, 643, № 7, maddə 1501, № 12 (II kitab), maddə 2484; 2020, № 4, maddə 496, № 10, maddələr 1260, 1295, № 11, maddə 1413; 2022, № 4, maddə 401) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 1.5-ci bəndinin beşinci abzasına, 1.11-ci bəndinin üçüncü və dördüncü abzaslarına, 2.1-ci bəndinin birinci abzasına, 2.4-cü bəndinə, 2.10-cu bəndinin birinci abzasına, 3.1-ci bəndinin birinci və üçüncü abzaslarına, 3.2-ci bəndinə, 4.1-ci bəndinin birinci və ikinci abzaslarına, 6.1-ci bəndinin birinci və dördüncü abzaslarına, 7.4-cü bəndinin ikinci abzasının ikinci cümləsinə, 7.5-ci bəndinin birinci abzasına, 88-ci maddənin dördüncü abzasına və 89-cu maddənin birinci abzasının ikinci cümləsinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451; 2012, № 12, maddə 1361; 2013, № 5, maddə 589, № 10, maddə 1205; 2018, № 8, maddə 1800; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 iyul tarixli 269 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın 5.8-ci və 6.21-ci bəndlərinə "yerli" sözündən sonra "baş idarə," sözləri əlavə edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 939; 2015, № 5, maddə 655; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 1, maddə 138; 2019, № 3, maddə 514; 2020, № 11, maddə 1402; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 iyul tarixli

268 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın mətni üzrə "yerli idarə" sözləri "yerli baş idarə, idarə," sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 fevral tarixli 30 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 199, № 12, maddə 1651) ilə təsdiq edilmiş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün hərbi qulluqçunun və ya vəfat etmiş hərbi qulluqçunun ailə üzvlərinin müraciət etdiyi vaxt təminat xərcliyinin hesablandığı hərbi xidmət vəzifəsi mövcud olmadıqda hərbi qulluqçuların vəzifələrinin mövcud hərbi xidmət vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın 3-cü hissəsi yeni redaksiyada verilsin:

| | |
|---|---|
| 3. Azərbaycan Respublikasının hərbi komissarlıqları (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) | 3. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) |
| 3.1. Birinci dərəcəli şəhər hərbi komissarlıqları | 3.1. Xidmətin yerli baş idarələri |
| Hərbi komissar | baş idarə rəisi |
| Bölmə rəisi — hərbi komissarın müavini | baş idarə rəisinin müavini - şöbə rəisi |
| Bölmə rəisi | şöbə rəisi |
| Bölmə rəisinin baş köməkçisi | şöbənin baş zabiti |
| Bölmə rəisinin köməkçisi, təlimatçı | şöbənin zabiti |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |
| 3.2. Birinci dərəcəli hərbi komissarlıqlar | 3.2. Xidmətin yerli idarələri |
| Hərbi komissar | idarə rəisi |
| Bölmə rəisi — hərbi komissarın müavini | idarə rəisinin müavini - şöbə rəisi |
| Bölmə rəisi | şöbə rəisi |
| Bölmə rəisinin baş köməkçisi | şöbənin baş zabiti |
| Bölmə rəisinin köməkçisi, təlimatçı | şöbənin zabiti |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |
| 3.3. İkinci dərəcəli hərbi komissarlıqlar | 3.3. Xidmətin yerli şöbələri |
| Hərbi komissar | şöbə rəisi |
| Bölmə rəisi-hərbi komissarın | şöbə rəisinin müavini - bölmə rəisi |

| | |
|---|---|
| müavini | |
| Bölmə rəisi | bölmə rəisi |
| Bölmə rəisinin baş köməkçisi | şöbənin zabiti |
| Bölmə rəisinin köməkçisi, təlimatçı | bölmənin zabiti |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |
| 3.4. Üçüncü dərəcəli hərbi komissarlıqlar | 3.4. Xidmətin yerli şöbələri |
| Hərbi komissar | şöbə rəisi |
| Bölmə rəisi — hərbi komissarın müavini | şöbə rəisinin müavini — bölmə rəisi |
| Bölmə rəisi | bölmə rəisi |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |
| 3.5. Dördüncü dərəcəli hərbi komissarlıqlar | 3.5. Xidmətin yerli şöbələri |
| Hərbi komissar | şöbə rəisi |
| Bölmə rəisi — hərbi komissarın müavini | şöbə rəisinin müavini — bölmə rəisi |
| Bölmə rəisi | bölmə rəisi |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |
| 3.6. Beşinci dərəcəli hərbi komissarlıqlar | 3.6. Xidmətin yerli bölmələri |
| Hərbi komissar | bölmə rəisi |
| Hərbi komissarın müavini | bölmə rəisinin müavini |
| Hərbi komissarın köməkçisi, təlimatçı | bölmənin zabiti |
| Məsul icraçı, kargüzar, operator | baş məsul icraçı |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 5 avqust 2022-ci il

№ 285